**Məcburi köçkünlərlə görüş**

Vergilər Nazirliyinin nümayəndələri 28 May - Respublika Günü və 15 İyun - Milli Qurtuluş Günü münasibətilə Ağcabədi rayonu ərazisində müvəqqəti məskunlaşmış Şuşa, Laçın, Ağdam, Füzuli və Xocavənd rayonlarından olan məcburi köçkünlərlə görüşmüşlər.

Vergilər Nazirliyi Aparatının rəhbəri Asif Cahangirov məcburi köçkünləri əlamətdar bayramlar münasibətilə təbrik etmiş, onlara vergilər naziri Fazil Məmmədovun və nazirliyin kollektivinin salamlarını çatdırmış, hər iki bayramın ölkəmizin müstəqillik tarixində mühüm yer tutduğunu qeyd etmişdir: «1918-ci il mayın 28-də Şərqdə ilk dəfə olaraq Azərbaycanda demokratik respublika qurulmuşdur. O vaxt Azərbaycanın dövlət müstəqilliyinin qısa zaman kəsiyində mövcud olmasına baxmayaraq, xalqımız üçün taleyüklü məsələlər həll edilmiş, dövlətçilik ənənələrinin əsası qoyulmuş, Milli Ordu formalaşdırılmış, Şərqdə ilk universitet açılmışdır. 15 İyun - Milli Qurtuluş Günü də bilavasitə dövlətçiliyimizlə bağlı bayramdır. Tarix dəfələrlə sübut etmişdir ki, müstəqilliyi qoruyub saxlamaq onu əldə etmək qədər çətindir. 1990-cı illərin əvvəllərində Azərbaycan öz tarixində ikinci dəfə əldə etdiyi müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qalarkən ümummilli lider Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıtması ilə ölkənin varlığı üçün yaranan təhlükə dəf edildi. Məhz həmin dövrdən etibarən ölkəmiz inkişaf etməyə başlamış, ulu öndərimizin əsasını qoyduğu strategiya nəticəsində iqtisadi dirçəlişə nail olunmuşdur. Bu gün əldə edilmiş nailiyyətlər möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir».

Vergilər Nazirliyinin məsul işçiləri qaçqın və məcburi köçkünlərlə söhbət etmiş, onların qayğıları ilə maraqlanmışlar. Prezident İlham Əliyevin qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı 2004-cü il 1 iyul tarixli sərəncamı ilə təsdiq edilmiş «Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğun artırılması üzrə Dövlət Proqramı»na uyğun olaraq, hökumətin bu istiqamətdə gördüyü işlər qeyd edilmişdir. Görüşlərdən sonra məcburi köçkünlərə bayram sovqatları çatdırılmışdır.